**Respublika.** - 2024.- 17 sentyabr. - № 202. - S. 1,9.

# Ölkəmizə qarşı qərəz niyə məhz COP29 öncəsi artır?..

**Nurlan Abdalov**

**Dünyada sabitlik simvolu kimi tanınan Azərbaycanda ictimai-siyasi tərəqqi bütün bölgədə sülh və təhlükəsizliyə ciddi əsaslar yaradır. Şübhəsiz, bu da regionun qapılarını Qərbin imperialist dairələrinin üzünə bağlayır. Ona görə də Cənubi Qafqaza soxulmaq üçün bölgədə "suyu bulandırmaq" istəyənlər Azərbaycan və ətraf ölkələrdə sabitliyi həzm edə bilmir, hər vəchlə bölgə dövlətlərini xaosa sürükləməyə cəhd edirlər.**

Sual yaranır, Qərb bölgəmizdə daha hansı oyunlar qurub? Bu, bir faktdır ki, istənilən ölkədə sabitliyi pozmaq üçün maraqlı dövlətlərə "beşinci kolon" lazımdır. Məhz onun vasitəsilə cəmiyyətin həssas kəsimini müxtəlif vasitələrlə və mövzularla manipulyasiya etməyə, ölkənin daxili sabitliyinə təhdidlər yaratmağa, beləliklə də ictimai-siyasi proseslərə müdaxilə imkanları əldə etməyə çalışılır.

XXI əsrdən geriyə dönüb baxsaq, görərik ki, əvvəllər əraziləri fəth edib, kütləvi qırğın və tələfatlar bahasına xalqlar itaətə məcbur edilirdisə, indi vəziyyət tamamilə fərqlidir. Vahid beyin mərkəzlərinin satın alınması və ya manipulyativ vasitələrlə dinc əhalinin gözündə pikant görünmək kifayət edir ki, daxili çaxnaşma yaransın. Lakin etnik, dini və milli kodeksinə sadiqliyi ilə seçilən xalqımız əsla bu kimi oyunlara aldanmır. Bununla yanaşı, Qərbin hazırda Azərbaycandakı "beşinci kolonu", yəni bizim yarıtmaz dissidentlərimiz çoxdan ifşa olunduğundan imperialist dairələr bu imkanlardan məhrum olublar.

Ona görə də Avropanın bəzi təşkilatları Azərbaycanda yenidən "beşinci kolon" formalaşdırmaqda, yeni simalar axtarışındadır. Onlar müstəqil media vasitələri adı altında bu cür narazı şəbəkələr qurmağa çalışırlar. Bütün bunlar isə gerçək Qərb siyasətinin xristian-səlibçilik, islamofob mahiyyətindən irəli gəlir. Qərbə boyun əyməyən Azərbaycan kimi ölkələri daim bu cür təzyiq altına salmaq, bölgədə müharibə ocaqlarını saxlamaqla yeni münaqişələrə rəvac verməkdir. Elə Ermənistanın da Birləşmiş Ştatlar və Qərb fondları vasitəsilə silahlandırılması, əvvəlki işğalçı və militarist ritorikasına qaytarılması da bunlarla bağlıdır. Bu işdə Qərb təşkilatları - onların Frank Şvabe kimi məmurları xüsusi rol oynayır. Şvabenin son illərdəki fəaliyyətinin, bəyanatlarının monitorinqi də göstərir ki, bu adama sanki yalnız bir iş tapşırılıb: Azərbaycana qarşı çıxmaq, onun artan nüfuzunu zədələmək, beynəlxalq təcridini təşkil etmək.

Halbuki qərəzli dairələrin öz daxilində kifayət qədər problem var. Avropanın bəzi ölkələrində faşizm antisemitizm tüğyan edir. İş o həddə çatıb ki, İsveçdə Quranı yandıran şəxslər hökumət tərəfindən qorunur. Söz azadlığı adı altında bu cür barbarlığa rəvac verilir. Miqrantlar insan yerinə qoyulmur. Belə bir zamanda Avropanın vicdan, söz azadlığı, insan haqlarından dəm vuran təşkilatları, beynəlxalq qurumları da susur. Belə olan təqdirdə, həmin təşkilatların üzvü olmağın bir anlamı qalırmı?!

Ölkəmizdə sentyabrın 1-də növbədənkənar parlament seçkiləri keçirildi. Qərb institutlarının Azərbaycanda keçirilən seçkilərə bir qulp qoyacağı isə öncədən məlum idi. Belə ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu adı altında dezinformasiya yayan bir qurumun dırnaqarası hesabatı bizi çox "intizar"da saxlamadı. Nəzərə almaq lazımdır ki, Azərbaycanda növbədənkənar parlament seçkiləri ilə bağlı müşahidə aparan bütün beynəlxalq təşkilatlar seçkilərin çox yüksək şəffaflıq şəraitində gerçəkləşdiyini bildiriblər. Amma buna baxmayaraq, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu ənənəvi təxribatlarına davam etdi. Şübhəsiz, ATƏT-in bu qərəzi təkcə Azərbaycana qarşı deyil. Hansı dövlətlər ki, müstəqil qərarlar verir, xarici siyasət kursunu Qərb imperializminin kirli maraqlarına uyğun formalaşdırmır, "nədənsə" bu kimi dövlətlərdə keçirilən seçkilərlə bağlı obyektiv olmayan, reallığı əks etdirməyən hesabatlar yayırlar.

Hələ seçkilərdən bir neçə gün əvvəl kütləvi informasiya vasitələrində ATƏT-ə Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti tərəfindən hansı hesabatı açıqlayacaqları ilə bağlı göstəriş verilib. Yəni kifayət qədər naşı olduğunu hər fürsətdə göstərən bu qurumun ölkəmizlə bağlı şərh bildirməsi heç bir məntiqə sığmır. Təbii ki, bu qeyri-ciddi məlumatları yayan ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu nümayiş etdirdi ki, qərəzin nə vaxtı, nə də ünvanı dəyişəcək. Necə ki, AŞPA-da Azərbaycan əleyhinə koalisiya qurulub və antitürk şüarlar onların dilindən düşmür. Ölkəmizin uğurlarını həzm etməmək üçün hər bir hadisə ilə bağlı boğazdan yuxarı, səhih olmayan, heç bir reallığa söykənməyən hansısa özlərinin iyrənc mülahizələrini ciddi, real bir bilgi kimi təqdim etmək istəyən qüvvələr var.

Ölkəmizin sədrlik edəcəyi mötəbər beynəlxalq tədbirin - COP29-un keçirilməsinə çox az vaxtın qalmasını nəzərə alsaq, uğurlarımızı həzm edə bilməyən qüvvələrin qərəzli təbliğatlarının genişləndirilməsini "məqbul" hesab etmək olar. Anti-Azərbaycan qüvvələrin "maşa"sı olan Frank Şvabe

kimi erməni dəyirmanına su tökənlər qayadan heç toz da götürə bilməz. Azərbaycan ictimaiyyəti Şvabenin, eyni zamanda bir sıra ABŞ konqresmenləri və senatorlarının, fransalı "siyasətçilərin" və insan hüquqları "müdafiəçilərinin" məqsədyönlü, sifarişli hücumlarına yaxından bələddir. Xaos və anarxiyanın yayılmasını "ədalət", "beynəlxalq hüquq", "demokratik dəyərlər" adı altında cəmiyyətə "sırımağa" can atırlar. Məhz son zamanlar xain hücumların artmasına səbəb isə Azərbaycanın beynəlxalq nüfuzunun, ölkəmizə böyük inamın və etimadın göstərici olan COP29-la bağlıdır. Bütün bunların arxasında isə erməni lobbisinin və anti-Azərbaycan qüvvələrin dayanması şəksizdir. Bunun üçün hazırda ermənilərin AŞPA-da təmsilçisi rolunda çıxış edən Şvabenin kimliyinə və onun bu günədək ölkəmizə qarşı həyata keçirdiyi əsassız təbliğatlara diqqət yetirmək kifayətdir.